bp-nin təchizatçılardan gözləntiləri

1. Etik qaydalar və tələblərə uyğunluq
2. Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit
3. Maliyyə cinayəti və normativ uyğunluq
4. Dayanıqlılıq
5. İnsan hüquqları və müasir kölələk
6. Ayrı-seçkiliyə və qısnama hallarına yol verilməməsi
7. Məlumatların məxfiliyi, kibertəhlükəsizlik və əqli mülkiyyət
8. Fikrini bildir

bp-nin təchizatçıları dünyaya enerji çatdırmaq məqsədimizi bu gün və sabah necə həyata keçirməyimizdə əsas rol oynayır.

Bizim davranış kodeksimiz "Biz kimik" fəlsəfəmizin özülünü təşkil edir və necə fəaliyyət göstərməyimizi formalaşdırır. Kodeksimizdə bildirilir ki, biz:

- biznes tərəfdaşlarımızla dürüst, hörmətə əsaslanan və məsuliyyətli şəkildə çalışırıq; və
- təhlükəsizlik, etik davranış qaydaları və normativ uyğunluq tələbləri ilə bağlı götürdüyümüz öhdəliyi paylaşan biznes tərəfdaşları ilə işləmək istəyirik.

Bu sənəddə bizim təchizatçılarla paylaşdığımız öhdəliklərlə bağlı əsas gözləntilər təsvir edilir. Bu gözləntilər kodeksi və ya müvafiq qanunvericiliyin yerini almır və ya onları əvəz etmir və müqavilə üzrə öhdəlikləri də dəyişmir.

Biz sizdən bu gözləntiləri dəstəkləməyinizi və onları öz işçiləriniz, subpodratçılarınız, agentləriniz və bp üçün iş görən digər biznes tərəfdaşlarınız ilə bölüşməyinizi xahiş edirik.

1. Etik qaydalar və normativ uyğunluq

a. Bütün tətbiq edilə bilən qanunlara və qaydalara əməl etmək.

b. Təhlükəsizliyi, bütövlüyü, şəffaflığı, bərabərliyi və ehtiramı təşviq edən etik mədəniyyət və biznes qaydalarını təşviq etmək və təbliğ etmək.

c. Müvafiq normativ uyğunluq tələbləri ilə əlaqədar riskləri davamlı olaraq müəyyənləşdirmək və idarə etmək üçün effektiv uyğunluq proqramının tətbiqini təmin etmək.

2. Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit ("SƏTƏM")

Əməliyyat fəaliyyətlərinin və SƏTƏM risklərinin idarə edilməsinə qabaqlayıcı və sistemli yanaşma üsulu nümayiş etdirərək, tətbiq edilə bilən SƏTƏM qanunlarının və normalarının tələblərinə riayət edərək və sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi üzrə göstəricilərin davamlı olaraq təkmilləşdirilməsinə səy göstərərək, biznes fəaliyyətlərini bp şirkətinin Təhlükəsizliklə bağlı Liderlik Prinsiplərinə uyğun tərzdə icraedin. İşçi qüvvənizi və təchizatçılarınızı hər hansı qəza, xəsarət, xəstəlik və ya təhlükəli vəziyyət barədə dərhal xəbər verməsi və belə təhlükəli şəraitdə işi dayandırması barədə məlumatlandırın ki, bu halda müvafiq tədbir görülə bilsin.

3. Maliyyə cinayəti və normativ uyğunluq

Sizin üçün işləyən və bp üçün görülən işlərə cəlb edilən şəxslərin aşağıdakı fəaliyyətlərdə iştirakının qarşısını almaq üçün effektiv proses və prosedurların (təlim, kompleks hüquqi qiymətləndirmə və maliyyə nəzarətləri də daxil olmaqla) yerində olmasını təmin etmək:

a. **İş əldə etmək**, əldə saxlamaq və ya işə rəhbərlik etmək, qeyri-müvafiq üstünlük təmin etmək və ya dövlət işçilərinin öz vəzifələrini qeyri-düzgün icra etməsi də daxil olmaqla, hər hansı şəxsə təsir etmək üçün dəyərli bir şeyin (asanlaşdırıcı ödənişlər də daxil olmaqla) birbaşa və ya dolayı yolla verilməsinin, ödənilməsinin, vəd verilməsinin, xahiş edilməsinin və ya qəbul edilməsinin açıq şəkildə qadağan edilməsi də daxil olmaqla, rüşvətxorluq və korrupsiya.

b. Hədiyyələrin, əyləncə və ya qonaqpərvərliyin qeyri-müvafiq **olaraq təmin edilməsi və ya qəbul edilməsi.**

c. **Sanksiyalar və ixraca nəzarət vasitələri ilə bağlı** pozuntu halları.

d. **Fırıldaqçı fəaliyyət, vergidən yayınma və ya çirkli pulların yuyulması** (qanunsuz vəsaitlərin köçürülməsi və ya gizlədilməsi yaxud bu cür vəsaitlərə qanuni don geyindirilməsi də daxil olmaqla).

e. **Rəqiblərlə qiymətlərin** müəyyən edilməsi, təkliflərin verilməsi, müştərilərin bölüşdürülməsi və ya təchizatın məhdudlaşdırılmasına əsaslanan istənilən formada razılıq və anlaşma xarakterli, rəqabətə mənfi təsir göstərən davranış.

f. Faktiki **maraq toqquşmasıvə** ya bp məlumatlarından və resurslarından düzgün olmayan qazanclar əldə etmək üçün istifadə olunması da daxil olmaqla, şəxsi və biznes maraqlarının aydın şəkildə toqquşması görüntüsü yarada biləcək vəziyyətlər.

4. Dayanıqlılıq

Bizim dayanıqlılıq mexanizmimiz və bp şirkətinin Satınalma şöbəsinin dayanıqlı satınalma mövqeyi üç əsas maraq sahəsini müəyyən edir: sıfır karbon emissiyasına nail olmaq, insanların həyat keyfiyyətini yüksəltmək və planetin qayğısına qalmaq. Biz təchizatçılarımızı aşağıdakılar da daxil olmaqla, bu sahələrdə müəyyən addımlar atmağa həvəsləndiririk:

a. İstixana qaz emissiyalarını daha yaxşı başa düşmək və onların miqdarını azaltmaq.
b. İnsan hüquqlarını təşviq etmək və bu hüquqlara hörmətlə yanaşmaq.
c. Yenidən istifadəni təşviq etməklə, məqsədləri yenidən təyin etməklə və materialları təkrar emal etməklə, dövri iqtisadi prinsipləri mənimsəmək.

5. İnsan hüquqları və müasir köləlik

a. Bütün insanların insan hüquqlarına və ləyaqətinə hörmətlə yanaşmaq, Biznes və İnsan Hüquqları üzrə BMT-nin Rəhbər Prinsiplərində müəyyən olunmuş öhdəlikləri yerinə yetirmək.
b. Məcburi və ya icbari əməyə, insan alverinə, uşaq əməyinə, köləlik və ya xidmətçiliyə yol verməmək və bütün işlərin cəza və ya sanksiya tətbiq edilmədən və yalana əl atmadan könüllü şəkildə görülməsini təmin etmək. Bu və digər gözləntilər bp şirkətinin Əmək Qaydaları və Müasir Köləlik Prinsipləri sənədində qeyd edilib.
c. İnsan hüquqları ilə əlaqədar işçilərə, icmalara və həssas qruplara (o cümlədən, yerli xalqlara və aşağıdakı 6b maddəsində qeyd edilən digər qruplara) hər hansı təsiri müəyyən etmək, onun qarşısını almaq, belə təsiri minimuma endirmək, yumşaltmaq və aradan qaldırmaq.
d. İşçilər və yerli icmalar, eləcə də insan hüquqlarını müdafiə edən şəxslərin insan hüquqlarına hörmətlə yanaşan məsuliyyətli bir tərzdə şəxsi və ictimai təhlükəsizliyin təmin edilməsinə çalışmaq.
e. İşçilərin müvafiq milli qanuni çərçivədə həmkarlar ittifaqı yaratmaq və kollektiv sövdələşmə aparmaq hüquqlarına hörmətlə yanaşmaq. Həmkarlar ittifaqı yaratmaq və kollektiv sövdələşmə aparmaq hüququnun qanunla qadağan edildiyi halda işçilərin təmsil olunması üçün alternativ vasitələrə açıq olmaq və iştirak cəhdlərini dəstəkləmək.

6. Ayrı-seçkilik və qısnama

Biz hamıya ədalət və hörmətlə yanaşırıq və işlədiyimiz hər kəsin də eyni münasibəti gözləyirik. Aşağıdakılar qadağandır:

a. İş yerlərinizdə və ya işə götürmə, inkişaf və karyera irəliləyişi məsələlərində hər hansı ədalətsiz ayrı-seçkiliyə yol vermək.
b. İrq, etnik mənsubiyyət, milli mənşə, din, cins, yaş, cinsi oriyentasiya, cinsi kimlik, ailə vəziyyəti, əlillik, veteran statusu və ya müvafiq qanunlarla qorunan hər hansı digər əlamətə əsasən ayrı-seçkiliyə yol vermək.
c. Hər hansı fiziki, şifahi və ya qeyri-şifahi təhqir və ya qısnama formalarına yol vermək. Buraya məntiq çərçivəsində təhqiramiz, hədələyici və ya alçaldıcı hesab edilən, eyni zamanda istənilən formada cinsi qısnama kimi hər hansı istənilən arzuolunmaz davranış daxildir.

7. Məlumatların məxfiliyi, kibertəhlükəsizlik və əqli mülkiyyət

Müvafiq qanunlara əməl etmək və bp-nin məlumatlarını, sistemlərini və əqli mülkiyyətini, eləcə də, sizin nəzarətiniz altında olan şəxsi məlumatları qorumaq üçün mövcud effektiv nəzarət vasitələrinə malik olun. Biz aşağıdakı tədbirlər də daxil olmaqla, məlumat və texnologiyanın məsuliyyətli və düşüncəli şəkildə istifadə edilməsini gözləyirik:

a. Fərdlərin məxfilik hüquqlarına və digərlərinin əqli mülkiyyət hüquqlarına hörmətlə yanaşmaq.
b. Sizə açıqlanan və etibar edilən məxfi məlumatların müvafiq şəkildə təsnif edilməsi, emalı və mühafizəsi.
c. İcazə verilməyən giriş, müdaxilə və ya kibertəhlükələrin baş vermə ehtimalını minimuma endirmək üçün effektiv kibertəhlükəsizlik tədbirləri görmək.
d. Hər hansı kibertəhlükəsizlik hadisələri, pozuntuları və ya bp şirkətinə təsir edə biləcək şübhəli güzəştlər ilə bağlı dərhal məlumat vermək və əməkdaşlıq etmək.
e. Rəqəmsal texnologiyaları işləyib hazırlayarkən və ya istifadə edərkən Süni İntellekt (AI) daxil olmaqla, etik təsirləri və nəzərdə tutulmayan nəticələri nəzərə almaq.

8. Fikrini bildir

a. Cavab tədbiri görülməsini qəbul etməyən "fikrini bildir" mədəniyyətini təşviq etmək və qaldırılan narahatlıqlarla bağlı tədbir görmək.
b. Sizin biznes və ya fəaliyyətlərinizlə bağlı hər hansı təhlükəli, qeyri-etik və ya təhlükə ehtimallı hər hansı vəziyyət müşahidə etdikləri zaman cavab tədbiri ilə üzləşmək qorxusu olmadan məlumat vermək üçün əməkdaşlarınızı, işçilərinizi, təchizatçılarımızı, yerli icmaları və digərlərini müəyyən vasitələrlə, o cümlədən şikayət mexanizmləri ilə təmin etmək.
c. bp şirkəti üçün görülən bir işdə iştirak etdikləri zaman bp rəhbərliyinə məlumat verə biləcəkləri və bp şirkətinin məxfi 'OpenTalk' dəstək xəttindən istifadə edə biləcəkləri barədə onlara məlumat vermək.

İstinadlar:

Daha ətraflı məlumat üçün aşağıdakılara müraciət edin:

- bp şirkətinin davranış kodeksi və 'Biz kimik' fəlsəfəsi
- bp şirkətinin Təhlükəsizliyin Təmin Edilməsində Liderlik Prinsipləri
- bp şirkətinin dayanıqlılıq mexanizmi
- bp şirkətinin dayanıqlı satınalma mövqeyi
- bp şirkətinin İnsan Hüquqları Siyasəti və Əmək Qaydaları və Müasir Köləlik Prinsipləri
- BMT-nin Biznes və İnsan Hüquqları ilə bağlı Rəhbər Prinsipləri

'OpenTalk' xətti:

Aşağıdakı kanallardan istifadə edərək istənilən vaxt bp şirkətinin məxfi dəstək xətti olan 'OpenTalk' ilə əlaqə saxlaya bilərsiniz:

Zəng üçün:
- **BK-da** +44 (0) 800 066 8331
- **ABŞ-da** +1 800 225 6141
- **+1 704 540 2242** "ödənişsiz" nömrəsi zənginizi sizdən ödəniş tutmadan qəbul edəcək.
- Yerli nömrələrin tam siyahısına baxmaq üçün aşağıdakı veb-sayta baxa bilərsiniz: www.opentalkweb.com

Onlayn:
- Aşağıdakı veb-səhifədə onlayn müraciət edin: www.opentalkweb.com